# TİKİNTİ VƏ QİDA MƏHSULLARININ QABLAŞDIRILMASINDA İSTİFADƏ OLUNAN DƏMİR QUTULARIN İSTEHSALI

**Daxili bazar araşdırması**

KOBİA

"İnnovativ Traninings " MMC
VÖEN: 1806732181

# XÜLASƏ

“Tikinti və qida məhsullarının qablaşdırılmasında istifadə olunan dəmir qutuların istehsalı” sahəsi üzrə daxili bazar araşdırmasının aparılması Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşəbbüsü ilə həyata keçirilir.

Araşdırmanın məqsədi Azərbaycan bazarında tikinti və qida məhsullarının qablaşdırılmasında istifadə olunan dəmir qutuların istehsalı ilə bağlı ümumi mənzərəni ortaya çıxarmaqdır.




Qeyd olunan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:



- **Bazar iştirakçıları və bazar həcminin təhlili**
- **Texnologiya və xammal təminatının araşdırılması**
- **Rəqabət mühitinin qiymətləndirilməsi**
- **Bazar tendensiyaları və inkişaf imkanlarının müəyyən edilməsi**

**Araşdırmanın əsas məlumat mənbələri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, TradeMap bazası və yerli istehsalçılar arasında aparılmış sorğulardır. Bununla belə, tikinti və qida məhsullarının qablaşdırılmasında istifadə olunan dəmir qutuların istehsalı üzrə ayrıca statistik göstəricilər mövcud olmadığından, bazar həcminin dəqiq hesablanması mümkün olmamışdır. Bu səbəbdən bazarın ölçüsü idxal və ixrac göstəriciləri, həmçinin sorğu nəticələri əsasında dolayı şəkildə qiymətləndirilmişdir.**

# MÜNDƏRİCAT

Tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutu növlərinin təsnifatı ________ 5

Azərbaycanda tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutu istehsalı sənayesinin mövcud vəziyyəti ________ 7

Dəmir qutu məhsullarının idxal-ixrac statistikası ________ 18

Qlobal miqyasda dəmir qutuların əsas idxalçıları ________ 29

Bazar iştirakçıları ilə sorğunun nəticələri ________ 34

Tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutu bazarının SWOT təhlili ________ 42

Dövlət siyasəti və dəstək mexanizmləri ________ 44

Nəticə və tövsiyələr ________ 46

# TİKİNTİ VƏ QİDA MƏHSULLARININ QABLAŞDIRILMASI ÜÇÜN DƏMİR QUTU NÖVLƏRİNİN TƏSNİFATI

**Tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutular dedikdə aşağıdakı məhsullar nəzərdə tutulur:**

**730900 - istənilən maddələr üçün (sıxılmış və ya mayeləşdirilmiş qazdan başqa), qara metallardan rezervuarlar, sisternlər, çənlər və analoji qablar, həcmi 300 l-dən çox, üzlüklü və ya termoizolyasiyalı və ya onlarsız, lakin mexaniki və ya istilik-texniki avadanlıqlarsız:**

**731010 - istənilən maddə üçün (sıxılmış və ya mayeləşdirilmiş qazdan başqa) qara metallardan sisternlər, çənlər, barabanlar, kanistrlər, yeşiklər və analoji qablar, həcmi 300 l-dən çox olmayan, üzlüklü və ya istilik izolyasiyalı və ya onlarsız, lakin mexaniki və ya istilik texniki avadanlıqlarsız:**

**731021 - konserv bankaları, lehimlə və ya otbortovka ilə bağlanan:**

**731029 - digərləri**

# TİKİNTİ VƏ QİDA MƏHSULLARININ QABLAŞDIRILMASI ÜÇÜN DƏMİR QUTU NÖVLƏRİNİN TƏSNİFATI



# AZƏRBAYCANDA TİKİNTİ VƏ QİDA MƏHSULLARININ QABLAŞDIRILMASI ÜÇÜN İSTİFADƏ OLUNAN DƏMİR QUTU SƏNAYESİNİN MÖVCUD VƏZİYYƏTİ

**Tikinti və qida üçün istifadə olunan dəmir qutular "hazır metal məmulatlar" sənayesinin tərkib hissəsi kimi formalaşır. Ona görə də dəmir qutular bazarı rəsmi statistikada ayrıca göstərilmədiyindən, bu tədqiqatda alt-seqmentin qiymətləndirilməsi üçün hazır metal məmulatlar sənayesinin göstəricilərindən istifadə olunub. Hazır metal məmulatlar iqtisadi fəaliyyət növünə müxtəlif təyinatlı metal konstruksiyalar, rezervuar və sisternlər, metal qablaşdırma məhsulları, o cümlədən tikinti və qida sənayesində istifadə olunan müxtəlif həcmli dəmir qutular daxildir və texnoloji baxımdan eyni xammal və avadanlıq bazasını bölüşürlər. Bu səbəbdən istehsal həcminin, müəssisə sayının və investisiya qoyuluşlarının dinamikası dəmir qutular alt-seqmentinin ümumi inkişaf meyllərini dolayısı ilə əks etdirir. Bununla belə, bu göstəricilər alt-seqment üçün təxmini çərçivə verir və daha dəqiq nəticə əldə etmək üçün idxal-ixrac məlumatları və yerli istehsalçılarla aparılan sorğunun nəticələri ilə birlikdə şərh edilir.**

# Hazır metal məmulatların istehsal həcmi:

milyon manat




2020-2024-cü illər üzrə statistik məlumatlar göstərir ki, hazır metal məmulatlarının istehsal həcmi ümumilikdə (2023-cü il istisna olmaqla) artan trendlə inkişaf edir. Baxılan son 5 ildə hazır metal məmulatlar sənayesində 62.1% artım müşayət olunmuşdur. Belə ki, 2020-ci ildə 265.2 milyon manat olan istehsal həcmi 2024-cü ildə 429.9 milyon manata çatmışdır. Qrafikdən də göründüyü kimi 2023-cü ildə əvvəlki illərin artım tendensiyası pozulub və sənaye məhsulunun həcmi 353,1 milyon manata enib. Bu da, 2022-ci illə müqayisədə təxminən 16.7% azalma deməkdir. Lakin 2024-cü ildə sektorda yenidən artım tempi müşayət olunub. Belə ki, ötən dövrlə müqayisədə 2024-cü ildə 21.8% artım qeydə alınıbdır.

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/industry/

# Fəaliyyət göstərən müəssisələr:




2024-cü ildə hazır metal məmulatlar sənayesində 257 müəssisə fəaliyyət göstərir ki, bunun da 252-si özəl sektorun payına düşür. Son beş ildə fəaliyyət göstərən müəssisələrin sayında 65.8% artım qeydə alınmışdır. Eləcə də, fəaliyyət göstərən qeyri-dövlət müəssisələrinin sayında isə son beş ildə 66.9% artım müşahidə olunmuşdur. Belə ki, fəaliyyət göstərən qeyri-dövlət müəssisələrin sayı 2020-ci ildəki 151-dən 2024-cü ildə 252-yə yüksəlib. Bu da biznes subyektlərinin sahəyə olan marağının artmasını göstərir.

Struktur baxımından isə demək olar ki, baxılan dövrdə dövlət müəssisələrinin sayı faktiki olaraq sabit (2020: 4 müəssisə, 2024: 5 müəssisə) qalıb. Bu isə o deməkdir ki, sənaye istehsalındakı artım əsasən dövlət sektorunun genişlənməsi ilə deyil, qeyri-dövlət müəssisələrinin aktivliyinin artması ilə bağlıdır.

Beləliklə, dövr üzrə dinamika sənaye sahəsində özəl sektorun rolunun getdikcə artdığını, bazar strukturunda qeyri-dövlət müəssisələrinin yəni özəl sektorun üstün mövqeyini daha da möhkəmləndirdiyini göstərir.

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/industry/

# Fərdi sahibkarların sayı

Eləcə də, hazır metal məmulatları istehsalı ilə məşğul olan fərdi sahibkarların da sayında artım tendensiyası davam edir. Belə ki, 2020-ci ildə 1964 nəfər olan fərdi sahibkarların sayı son 5 ildə 7.3% artım nümayiş etdirərək 2024-cü ildə 2107 nəfərə çatmışdır. Ətraflı aşağıdakı qrafikdə:




**Fərdi sahibkarların sayı, nəfər**

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/industry/

# HAZIR METAL MƏMULATLARININ İSTEHSALINA YÖNƏLDİLMİŞ İNVESTİSİYALAR




**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**
**https://www.stat.gov.az/source/industry/**

# HAZIR METAL MƏMULATLARININ İSTEHSALINA YÖNƏLDİLMİŞ İNVESTİSİYALAR

**Qrafikdən də göründüyü kimi hazır metal məmulatlarının istehsalına yönəldilən investisiyalar dalğalı dinamika ilə inkişaf etmişdir. 2020-ci ildə 55,2 milyon manat olan investisiya həcmi 2021-ci ildə kəskin azalaraq 3,3 milyon manata düşmüşdür. Bu da, təxminən 94% geriləmə deməkdir. Kəskin azalmanın səbəbi COVİD-19 pandemiyasının təsiri ilə də izah oluna bilər. Çünki pandemiya dövründə mövcud olan qeyri-müəyyənliklər, məhdudiyyətlər və logistika xərclərinin artması və s. səbəblər müəssisələri investisiya qoyuluşlarından çəkindirirdi. Bu da sənaye sahələrində investisiya həcmlərinin kəskin enməsinə səbəb olmuşdur. Lakin qrafikdən də göründüyü kimi 2021-ci ildən etibarən hazır metal məmulatları sektoruna investisiya axınında artım müşahidə olunmağa başladı. Belə ki, 2021-ci illə müqayisədə 2024-cü ildə investisiyalar təxminən 10 dəfə artsa da, bu 2020-ci ildəki səviyyədən 38% aşağıdır.**

**Eləcə də, qeyd edək ki, investisiya qoyuluşları tamamən daxili mənbələr hesabına baş vermişdir. Bu da hazır metal məmulatları istehsalında yerli maliyyə resurslarının (bank kreditləri, dövlət dəstəyi və müəssisələrin öz vəsaitləri və s.) əhəmiyyətli rol oynadığını göstərir. Xarici kapitalın olmaması isə xarici investorlar üçün bu sahənin cəlbedicilik və ya məlumatlılıq səviyyəsinin kifayət qədər yüksək olmadığını göstərir.**

# HAZIR METAL MƏMULATLARININ İSTEHSALINA YÖNƏLDİLMİŞ İNVESTİSİYALAR



**Beləliklə, aparılan təhlil deməyə əsas verir ki:**

- **baxılan illər üzrə hazır metal məmulatları sənayesi, dolayısı ilə tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutular seqmenti həm inkişaf potensialı, həm də müəyyən həssaslıqlar nümayiş etdirir.**
- **İstehsal həcminin 62,1% artması, fəaliyyət göstərən müəssisələrin və fərdi sahibkarların sayının yüksəlməsi, eləcə də özəl sektorun sahədə üstün mövqeyə malik olması biznes mühitinin tədricən genişləndiyini göstərir.**
- **İnvestisiya qoyuluşlarındakı dalğalanmalar və xarici kapitalın faktiki olaraq olmaması onu göstərir ki, bu bazar hələ də daha çox yerli resurslar hesabına inkişaf edir və xarici investorlar üçün əlavə məlumatlandırma, risklərin izahı və dəstək mexanizmlərinə ehtiyac var.**
- **Eləcə də, investisiya qoyuluşlarının ancaq daxili mənbələr hesabına həyata keçirilməsi sektorun uzunmüddətli dayanıqlığı və texnoloji yenilənməsi baxımından risk amil kimi qiymətləndirilə bilər.**
- **Tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutuların istehsal statistikasının ayrıca ayrılmaması isə bu alt-seqment üzrə daha hədəfli sənaye və investisiya siyasəti formalaşdırmaq üçün əlavə çətinliklər yaradır**

# TİKİNTİ VƏ QİDA MƏHSULLARININ QABLAŞDIRILMASI ÜÇÜN İSTİFADƏ OLUNAN DƏMİR QUTULARIN İDXAL-İXRAC STATİSTİKASI

**Dəmir qutuların idxal-ixrac statistikası əvvəldə qeyd olunan HS kodlar vasitəsi ilə toplanmışdır.**

## Dəmir qutuların idxal statistikası

| Məhsul kodu | Malın adı | Ölçü vahidi | 2022 | | 2023 | | 2024 | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | miqdarı | məbləği | miqdarı | məbləği | miqdarı | məbləği |
| 730900 | Qara metallardan həcmi 300 l-dən çox olan rezervuar, sistern, çən və analoji tutumlar | ton/min ABŞ dolları | 736.03 | 4453.04 | 1200.79 | 7291.81 | 1260.55 | 8041.06 |
| 731010 | Qara metallardan tutumu 50-300 l olan sistern, çən, kanistr və analoji tutumlar | ton/min ABŞ dolları | 786.89 | 1955.9 | 1454.53 | 2883.2 | 1632.47 | 2005.43 |
| 731021 | Qara metallardan tutumu 50 l-dən az olan konserv bankaları | ton/min ABŞ dolları | 164.19 | 936.6 | 249.69 | 1014.01 | 250.74 | 1109.2 |
| 731029 | Qara metallardan tutumu 50 l-dən az olan digər qablar | ton/min ABŞ dolları | 98.79 | 498.29 | 206.12 | 811.7 | 310.15 | 1330.19 |
| Cəmi: | | | 1785.9 | 7843.83 | 3111.13 | 12000.7 | 3453.91 | 12485.9 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi“Azərbaycanın xarici ticarət əlaqələri” - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər https://www.stat.gov.az/source/trade/




**İdxal dinamikası, tonla**

**İllər üzrə idxal olunan dəmir qutuların bir tonunun qiyməti isə aşağıdakı kimi olmuşdur:**

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi“Azərbaycanın xarici ticarət əlaqələri” - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər  https://www.stat.gov.az/source/trade/**

min ABŞ dolları

| Məhsul kodu | Malın adı | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|
| 730900 | Qara metallardan həcmi 300 l-dən çox olan rezervuar, sistern, çən və analoji tutumlar | 605.0079 | 607.2511 | 637.9009 |
| 731010 | Qara metallardan tutumu 50-300 l olan sistern, çən, kanistr və analoji tutumlar | 2,485608 | 1,982221 | 1,228464 |
| 731021 | Qara metallardan tutumu 50 l-dən az olan konserv bankaları | 5,704367 | 4,061076 | 4,423706 |
| 731029 | Qara metallardan tutumu 50 l-dən az olan digər qablar | 5,043932 | 3,937997 | 4,28886 |

**Mənbə: müəllif tərəfindən hesablanmışdır**

- **Baxılan dövr ərzində dəmir qutuların (730900, 731010, 731021, 731029 HS kodları üzrə) idxalı artım tendensiyası göstərir. Belə ki, baxılan məhsullar üzrə idxalın həcmi 2022-ci ildəki 1785.9 tondan 2024-cü ildə 3453.91 tona yüksəlib, yəni 3 il ərzində dəyər ifadəsində 59,2% , miqdaq ifadəsində isə 93.4%, eləcə də 2023-2024-cü illər aralığında isə dəyər ifadəsində 4,04%, miqdar ifadəsində isə 11.02%-lik artım müşahidə olunub.**
- **Struktur baxımından baxdıqda isə illər üzrə 730900 - 300 l-dən çox olan rezervuar, sistern, çənlər və 731010- 50-300 l tutumlu sistern, çən, kanistr və s. kimi məhsullar idxalda əsas paya malikdirlər. Belə ki, 2024-cü ildə sözügedən bu iki məhsul dəmir qutular idxal həcminin təxminən 83.8%-i təşkil etmişdilər.**
- **İdxalında ən sürətli artım isə HS 731029 - qara metallardan tutumu 50 l-dən az olan digər qablar üzrədir. Belə ki, 2022-ci illə müqayisədə 2024-cü ildə həcmi təxminən 213.9% artıb. Bu da, konservləşdirmədən kənar sahələrinin, yəni boya və lak, kimyəvi maddələr, sənaye yağları və s. üzrə istehsalın genişləndiyini ehtimal etməyə imkan verir.**
- **Fiziki həcmin artmasına baxmayaraq, qiymət dinamikasında isə 2022-ci illə müqayisədə 2024-cü ildə 730900 HS kodlu məhsul istisna olmaqla digərlərində azalma müşahidə olunmuşdur. Bu da vahid məhsulun idxal qiymətinin əhəmiyyətli dərəcədə ucuzlaşdığını göstərir.**
- **Nəticələr qablaşdırmada dəmir qutulardan istifadə ilə əlaqəli sahələrdə tələbin davamlı artdığını, lakin daxili bazarın idxaldan asılılığının azalmadığını, əksinə, həcminin genişləndiyini göstərir.**

# DƏMİR QUTULAR ÜZRƏ İXRAC STATİSTİKASI

| Məhsul kodu | Malın adı | Ölçü vahidi | 2022 | | 2023 | | 2024 | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | miqdarı | məbləği | miqdarı | məbləği | miqdarı | məbləği |
| 730900 | Qara metallardan həcmi 300 l-dən çox olan rezervuar, sistern, çən və analoji tutumlar | ton/min ABŞ dolları | 20.15 | 25.75 | 48.88 | 142.74 | 23.38 | 126.25 |
| 731010 | Qara metallardan tutumu 50-300 l olan sistern, çən, kanistr və analoji tutumlar | ton/min ABŞ dolları | 0.09 | 1.87 | 1.25 | 3.57 | 2.13 | 1.12 |
| 731021 | Qara metallardan tutumu 50 l-dən az olan konserv bankaları | ton/min ABŞ dolları | 24.36 | 85.65 | 88.44 | 300.22 | 38.06 | 133.18 |
| 731029 | Qara metallardan tutumu 50 l-dən az olan digər qablar | ton/min ABŞ dolları | 1.59 | 3.98 | 3.92 | 25.64 | 0.35 | 1.52 |
| | Cəmi: | | 46.19 | 117.25 | 142.49 | 472.17 | 63.92 | 262.07 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi“Azərbaycanın xarici ticarət əlaqələri” - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər  https://www.stat.gov.az/source/trade/




**İxrac dinamikası, tonla**

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi“Azərbaycanın xarici ticarət əlaqələri” - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər https://www.stat.gov.az/source/trade/**

İllər üzrə ixrac olunan dəmir qutuların bir tonunun qiyməti isə aşağıdakı kimi olmuşdur:

min ABŞ dolları

| Məhsul kodu | Malın adı | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|
| 730900 | Qara metallardan həcmi 300 l-dən çox olan rezervuar, sistern, çən və analoji tutumlar | 1.28 | 2.92 | 5.40 |
| 731010 | Qara metallardan tutumu 50-300 l olan sistern, çən, kanistr və analoji tutumlar | 20.8 | 2.8 | 0.5 |
| 731021 | Qara metallardan tutumu 50 l-dən az olan konserv bankaları | 3.5 | 3.4 | 3.5 |
| 731029 | Qara metallardan tutumu 50 l-dən az olan digər qablar | 2.5 | 3.5 | 3.4 |

Mənbə: müəllif tərəfindən hesablanmışdır

- **Baxılan 3 illik dövr dəmir qutuların ixrac statistikasında kəskin dalğalanma ilə xarakterizə olunur. 2022-ci ildə ümumi ixrac həcmi 46,19 ton (117.25 min ABŞ dolları) olduğu halda, 2023-cü ildə 142.49 tona (472.17 min ABŞ dollarına) yüksəlir. Yəni dəyər ifadəsində 302. % artım baş verir. 2024-cü ildə isə ixracın həcmi 63.92 tona, dəyəri isə 262.07 min ABŞ dollarına düşərək 2023-cü illə müqayisədə dəyər ifadəsində 44.5% azalma nümayiş etdirir.**
- **Məhsul strukturu baxımından isə 731021- tutumu 50 litrdən az olan konserv bankaları hər üç ildə əsas paya malikdir. Həcm baxımından bu məhsulun payı 2022-ci ildə təxminən 93,5%, 2023-cü ildə 94,5%, 2024-cü ildə isə 93,9% civarındadır, dəyər payı isə 90%-dən yüksək, xüsusilə 2024-cü ildə 98% təşkil edir.**
- **Qiymət təhlili isə göstərir ki, konserv bankaları üzrə ixrac qiymətində ciddi dəyişiklik qeydə alınmayıbdır ki, bu da məhsul üzrə beynəlxalq qiymət səviyyəsinin nisbətən sabit olduğunu göstərir. Əsas qiymət artımı isə qara metallardan həcmi 300 l-dən çox olan rezervuar, sistern, çən və analoji tutumlarda qeydə alınıbdır.**
- **Dəmir qutuların ixrac dinamikası göstərir ki, bazarda ixrac müqavilələrinin, alıcı ölkələrin və tədarük zəncirinin hələ kifayət qədər stabilləşmədiyi üçün, qısa müddətdə həm genişlənmə, həm də daralma riskləri yüksəkdir. Belə ki, 2023-cü ildə əldə olunan yüksək göstəricilər bir tərəfdən sahənin potensialını nümayiş etdirir, digər tərəfdən isə 2024-cü ildəki kəskin azalma onu göstərir ki, ixrac hələ sabit, uzunmüddətli müqavilələr və geniş coğrafiya üzərində qurulmayıbdır.**

**Ümumilikdə isə, üç illik təhlil deməyə əsas verir ki, dəmir qutular bazarı kəskin şəkildə idxaldan asılıdır.**

# AZƏRBAYCANIN ÖLKƏLƏR ÜZRƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARI

## 2022-ci ildə ölkələr üzrə idxal tonla




## 2022-ci ildə ölkələr üzrə ixrac, tonla




**2022-ci ildə dəmir qutular üzrə idxal bazarında əsas təchizatçılar sırasında Türkiyə, Rusiya Ukrayna və Çini qeyd etmək olar.**

**İxrac əməliyyatları isə həcminə görə çox aşağı səviyyədə olub, məhdud sayda ölkəyə yönəlib. Əsas ixrac bazarı Rusiyadır.**

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" 2022-ci il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/**

## 2023-cü ildə ölkələr üzrə idxal, tonla




## 2023-cü ildə ölkələr üzrə ixrac, tonla




**2023-cü ildə idxal bazarında müəyyən dəyişikliklər müşahidə olunub. Türkiyə əsas idxal mənbələrindən biri olub və Rusiyanı idxal həcminə görə qabaqlayıbdır. Belarus və Almaniya da əsas təchizatçılara çevriliblər.**

**2023-cü ildə isə əsas ixrac bazarı Qazaxıstan olubdur.**

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" 2023-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/**

## 2024-cü ildə ölkələr üzrə idxal, tonla




## 2024-cü ildə ölkələr üzrə ixrac, tonla




**2024-cü ildə əsas idxal bazarı Türkiyə, əsas ixrac bazarı isə Özbəkistan olubdur.**

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Azərbaycanın xarici ticarət əlaqələri” 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/**

# MƏHSULLAR ÜZRƏ İDXAL-İXRAC STATİSTİKASI

## 2024-cü ildə 730900 - qara metallardan həcmi 300 l-dən çox olan rezervuar, sistern, çən və analoji tutumlar üzrə

### idxal, tonla




### ixrac, tonla




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

## 2024-cü ildə 731010 - qara metallardan tutumu 50-300 l olan sistern, çən, kanistr və analoji tutumlar üzrə

**idxal, tonla**




**ixrac, tonla**




**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/**

## 2024-cü ildə 731021 - qara metallardan tutumu 50 l-dən az olan konserv bankaları üzrə

**idxal, tonla**




**2024-cü ildə 731021 - Qara metallardan tutumu 50 l-dən az olan konserv bankaları yalnız Rusiyaya (38.06 ton) ixrac olunmuşdur.**



**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/**

# 2024-cü ildə 731029 - qara metallardan tutumu 50 l-dən az olan digər qablar üzrə

**idxal, tonla**




**ixrac, tonla**




**Tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutuların idxal-ixrac statistikasının təhlili göstərir ki, idxal bazarı kifayət qədər diversifikasiya olunmuş hesab oluna bilər. 2022-2024 dövründə idxal ən azı 4-5 əsas ölkə arasında bölünmüşdür. Xüsusilə Türkiyə və Rusiya payları böyük olsa da , digər ölkələr də (Çin, Belarus və s.) əhəmiyyətli rol oynayırlar. Bu isə onu göstərir ki, Türkiyə və Rusiya əsas təchizatçılar olsa da, alternativ mənbələrin olması asıllığı azaldır. İxrac bazarında isə əksinə, diversifikasiyası aşağıdır. Bu hal riskli faktor kimi qiymətləndirilə bilər, çünki bir bazardan asılılıq həmin bazarda tələbin dəyişməsi və ya ticarət maneələri yaranacağı təqdirdə ixracatçını çətin vəziyyətdə qoya bilər.**

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/**

# QLOBAL MİQYASDA TİKİNTİ VƏ QİDA MƏHSULLARININ QABLAŞDIRILMASI ÜÇÜN İSTİFADƏ OLUNAN DƏMİR QUTULARIN ƏSAS İDXALÇILARI

**2024-cü ildə dəmir qutular üzrə əsas bazar tələbatı yaradan idxalçılar:**
**min ABŞ dolları ifadəsində**

**730900 - qara metallardan həcmi 300 l-dən çox olan rezervuar, sistern, çən və analoji tutumlar üzrə:**




Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx

**731010- qara metallardan tutumu 50-300 l olan sistern, çən, kanistr və analoji tutumlar üzrə:**




**Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx**

## 731021- qara metallardan tutumu 50 l-dən az olan konserv bankalar üzrə:




**Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx**

# 731029 -  qara metallardan tutumu 50 l-dən az olan digər qablar üzrə:




**Azərbaycan istehsalçıları üçün coğrafi yaxınlıq, logistika xərcləri və mövcud ticarət əlaqələri nəzərə alındıqda ilk növbədə Rusiya, Qazaxıstan,  Özbəkistan, Türkiyə, Gürcüstan, , BƏƏ və s. ölkələr əsas hədəf ixrac bazarları ola bilər.**

**Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı  https://www.trademap.org/Index.aspx**

# ƏSAS BAZAR İŞTİRAKÇILARI

ENNA

Cahan Holding - “ENNA” MMC

TAJ COMPANY
COMPETENCE IN BEVERAGE PROCESSING

FAB

SOB SAN

FAB Boya və Kimya Sənayesi MMC

“Rəmzi-S MMC ” - Sobsan Boya

# İSTEHSALÇILARLA APARILAN SORĞUDAN ALINAN NƏTİCƏLƏR

**Son 3 il ərzində istehsal həcminizin dinamikası**



# İSTEHSALÇILARLA APARILAN SORĞUDAN ALINAN NƏTİCƏLƏR

**Məhsullarını ixrac edirsinizmi?**



# İSTEHSALÇILARLA APARILAN SORĞUDAN ALINAN NƏTİCƏLƏR

**Avadanlıqlarınızın mənşə ölkəsi**



# İSTEHSALÇILARLA APARILAN SORĞUDAN ALINAN NƏTİCƏLƏR

**Avadanlıqlarınızın texnoloji səviyyəsi**



# İSTEHSALÇILARLA APARILAN SORĞUDAN ALINAN NƏTİCƏLƏR

**İstehsal prosesinizin avtomatlaşdırma dərəcəsi**



# İSTEHSALÇILARLA APARILAN SORĞUDAN ALINAN NƏTİCƏLƏR

**Xammalın təminat mənbəyi**




**Xammalın qiymət sabitliyi**



## Sorğu nəticələrinin ətraflı təhlili:

- bu sahədə fəaliyyət göstərən müəssisələr miqyas və ixtisaslaşma baxımından kifayət qədər fərqlənir. Belə ki, kiçik müəssisələrlə yanaşı, 250-350 nəfərlik daha iri istehsalçılar da mövcuddur.
- Müəssisələrdə məhsul çeşidi baxımından qida və boya məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutular üstünlük təşkil edib;
- Son üç ildə bazarda istehsal həcmi daha çox sabitlik nümayiş etdiribdir. Bu isə bazarın kəskin genişlənmədən daha çox mövcud tələbatın qorunub saxlanılması fonunda formalaşdığını göstərir;
- Sahənin kifayət qədər ixrac potensialı var, lakin hələ də tam sistemli deyil, gələcəkdə ixracın strukturlaşdırılmasına ehtiyac var
- Xammal təminatında əsasən idxal məhsulları, qismən isə yerli məhsullar üstünlük təşkil edir. Eləcə də əsas təchizatçılar kimi Türkiyə, Rusiya, Çin və Almaniyanı qeyd etmək olar. Xammal qiymətləri qismən dəyişsə də, əsasən sabitdir.



## Sorğu nəticələrinin ətraflı təhlili:

- İstehsal prosesi avtomatlaşdırılsa da, əl əməyindən istifadə hələ də davam edir
- İstifadə olunan avadanlıqlar əsasən Almaniya,Türkiyə və İtaliya istehsalıdır
- Son illərdə ölkədə baxılan dəmir qutu bazarında bir neçə paralel tendensiya formalaşıb. Keyfiyyətə dair tələblərin yüksəlməsi, yeni texnologiyaların tətbiqi, ekoloji tələblərə uyğun, daha yüngül materiallardan istifadə və dizayn dəyişiklikləri əsas tendensiyalardır. Digər tərəfdən, plastik qablaşdırmaya tələbatın yüksək olması klassik dəmir qutulara olan tələbatın müəyyən qədər azalmasına gətirib çıxarır.
- Bu sahədə peşəkar kadrların azlığı müəssisələrin qarşılaşdığı əsas problemlərdəndir.
- Müəssisələrin dövlət dəstəyi ilə bağlı gözləntiləri daha çox peşəkar kadr hazırlığı, texniki və idarəetmə bacarıqlarının artırılması, eləcə də ixracın təşviqi və xarici bazarlara çıxışın dəstəklənməsi üzərində cəmlənir. Bu baxımdan, baxılan dəmir qutular istehsalı sahəsində əsas məhdudlaşdırıcı amillər texnoloji gerilikdən çox xammal asılılığı, bazar tələbinin qeyri-sabitliyi və insan kapitalı ilə bağlıdır. Müvafiq dövlət proqramları və KOBİA-nın dəstəyi ilə xammal təchizatının lokallaşdırılması, ixtisaslı kadrların hazırlanması və ixracyönümlü fəaliyyətin stimullaşdırılması bu sektorun inkişafına əhəmiyyətli töhfə verə bilər.

# TİKİNTİ VƏ QİDA MƏHSULLARININ QABLAŞDIRILMASI ÜÇÜN İSTİFADƏ OLUNAN DƏMİR QUTU BAZARININ SWOT TƏHLİLİ



| GÜCLÜ TƏRƏFLƏRİ | ZƏİF TƏRƏFLƏRİ |
| --- | --- |
| • Ümumilikdə hazır metal məmulatlar sənayesində artan istehsal;<br>• Özəl sektorun üstünlük təşkil etməsi və aktiv iştirakı<br>• Həm kiçik, həm də iri müəssisələrin bazarda iştirakı sifarişlərə uyğunlaşmaq baxımından üstünlüyü<br>• Sorğu nəticələrinə əsasən məhsulun keyfiyyətinə və istehsalın səmərəliliyinə müsbət təsir göstərən texnoloji bazanın mövcudluğu və istehsal prosesinin əsasən avtomatlaşdırılması<br>• İxracın həcmi az və dalğalı olsa da, artıq müxtəlif ölkələrə ixrac faktının mövcudluğu onu göstərir ki, bu sahə regional bazarlara çıxış təcrübəsinə malikdir və potensialı var<br>• İdxalın isə müxtəlif ölkələr arasında bölüşdürülməsi isə tək mənbədən asılı olmaması baxımından üstünlük təşkil edir | • Alt-seqment üzrə ayrıca statistikanın olmaması bazarı daha dərindən təhlil etməyə və hədəfli şəkildə planlaşdırılmasına maneələr yaradır<br>• İdxalın ixracı ciddi şəkildə üstələməsi<br>• İxracın sabit, uzunmüddətli müqavilələr və geniş coğrafiya üzərində qurulmaması və əsas bir məhsulla (konserv bankaları) məhdudlaşması<br>• Ümumilikdə hazır metal məmularlar sektoruna xarici investiya qoyuluşlarının olmaması və daxili mənbələr hesabına təmin olunması<br>• Peşəkar kadr çatışmazlığı probleminin olması istehsalın idarə edilməsi, yeni texnologiyaların mənimsənilməsinə maneələr yaradır |

| İMKANLAR | TƏHLÜKƏLƏR |
| --- | --- |
| • İdxalın həcminin artması tələbin genişləndiyini göstərir. Bu da yerli istehsalın idxalı əvəz etməsi üçün “bazar boşluğunun” olmasını göstərir<br>• Tikinti və qida məhsullarının qablaşdırılmasında dəmir qablara tələbatın olması istehsalçılar üçün klasterləşmə imkanı yaradır<br>• Mövcud ixrac potensialından istifadə etməklə uzunmüddətli müqavilələr, logistik zəncirin optimallaşdırılması və markalaşma ilə ixracın həm həcmini, həm də sabitliyini artırmaq mümkündür<br>• Xammal təminatının lokallaşdırılması üçün resursların mövcudluğu<br>• Dövlət və ya KOBİA tərəfindən peşəkar kadr hazırlığı, ixracın təşviqi, kredit və vergi güzəşti kimi mexanizmləri sahənin inkişafını dəstəkləyə bilər<br>• Ekoloji tələblər, tullantıların azaldılması və təkrar emalın təşviqi fonunda metal qablaşdırmanın plastiklə müqayisədə üstünlüklərini önə çıxarmaq bazar üçün yeni imkanlar aça bilər | • Plastik və alternativ qablaşdırma materialları ilə rəqabətdə geriləmə<br>• İdxal olunan xammal üzrə beynəlxalq qiymətlərin və logistika xərclərinin dəyişkənliyi istehsalçıları həm daxili bazarda, həm də ixracda rəqabət baxımından zəiflədə bilər.<br>• İxracın məhdudluğu (həm məhsul, həm ölkə üzrə) həmin bazarlarda tələbin azalması, ticarət məhdudiyyətləri və ya geosiyasi risklər olduqda satışların kəskin enməsi təhlükəsini artırır<br>• daxili mənbələr hesabına maliyyələşmə gələcəkdə texnoloji yenilənmə və istehsal güclərinin genişləndirilməsi üçün məhdudiyyətlərin olması riskini artırır<br>• Tikinti və qida məhsullarının qablaşdırılması üçün istifadə olunan dəmir qutuların statistikasının ayrıca ayrılmaması bu spesifik bazara ünvanlanan vergi, subsidiya, investisiya və ixrac təşviqi alətlərinin düzgün hədəflənməməsi təhlükəsini yaradır. |

# DÖVLƏT SİYASƏTİ VƏ DƏSTƏK MEXANİZMLƏRİ

**Dövlət tərəfindən ayrıca dəmir qutu istehsalı üçün dəstək tədbirləri, proqramlar olmasa da, qeyri-neft sənayesinin inkişafı üçün tətbiq olunan bir sıra dəstək proqramları və mexanizmlərdən tikinti və qida məhsullarının qablaşdırılması üçün dəmir qutu istehsalçıları da faydalana bilərlər. Bura aiddir:**

- **sənaye parkları və məhəllələrinin rezidenti kimi qeydiyyatdan keçərək 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunma;**
- **Eləcə də, qeyd olunanlarla yanaşı işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar xüsusi güzəştli bank kreditləri (90%-dək dövlət zəmanəti, 10% subsidiya), kommunal ödənişlərinə 20% kəşbək, dividend gəlirlərində vergidən azadolma, sosial sığorta ödənişləri üzrə dövlət subsidiyası, mənfəətin və kapitalın repatriasiyasının vergidən tam azadolması, xammal idxalında gömrük və ƏDV güzəştləri və s.**

- “İnvestisiya təşviqi sənədi” ilə 7 il müddətində mənfəət və gəlirin 50%, əmlak və torpaq vergisindən, həmçinin idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə idxalda ƏDV-dən və idxal rüsumlarından azad olma;
- KOBİA tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərini tanıtmaq və bu yolla onların satış imkanlarını genişləndirmək üçün ödənişsiz biznes təlimlər (onlayn və oflayn formatda), informasiya və məsləhət xidməti, biznes planın hazırlanmasına, KOB-ların beynəlxalq ixtisasartırma proqramında iştirakına, yerli və xarici ölkələrdə ixtisaslaşmış sərgilərdə iştiraka dəstək, qrant layihələri, daxili bazar araşdırmalarının maliyyələşməsi, “Startap” şəhadətnaməsinin verilməsi və s.
- Sahibkarlığın İnkişafı Fondu tərəfindən aşağı faizli, uzunmüddətli güzəştli kreditlərin verilməsi;

**AZPROMO tərəfindən “Made in Azerbaijan” brendi altında beynəlxalq sərgilərdə ölkə stendi və fərdi iştiraka dəstək və s.**

# NƏTİCƏ

Azərbaycanın hazır metal məmulatları sektoru artım tempi və özəl biznesin aktiv iştirakı ilə xarakterizə olunur. Onun alt seqmenti olan tikinti və qida məhsullarının qablaşdırılmasında istifadə olunan dəmir qutular sektorunda baxılan dövrdə artan tələbata baxmayaraq daxili bazarın idxaldan asılılığı azalmamış, əksinə genişlənmiş və ixracın həcmi cüzi səviyyədə qalaraq qeyri-sabit dinamika nümayiş etdirmişdi.

Sektorda xammal təminatının əsasən idxal hesabına olması, ixracın məhdud coğrafi miqyası, alt-seqment üzrə dolğun statistik məlumatların mövcud olmaması və peşəkar kadr çatışmazlığı kimi problemlər inkişafı məhdudlaşdıran əsas amillərdir. Bununla belə, artan daxili tələbat yerli istehsal üçün əhəmiyyətli bazar boşluğunun olduğunu göstərir. Mövcud dövlət dəstəyi mexanizmlərindən (sənaye parkları, investisiya təşviqi, güzəştli kreditlər və s.) istifadə istehsalçıların inkişaf etməsi və ixrac potensiallarının artması baxımından əhəmiyyətli rolu var. Eləcə də, ekoloji meyllər fonunda metal qablaşdırmanın plastik materiallara nisbətən üstünlüklərinin ön plana çıxması sektor üçün yeni imkanlar yaradır.





# TÖVSİYƏLƏR

- **Əsas xammal növlərinin ölkə daxilində istehsalı və ya alternativ təchizat mənbələrinin inkişafı xammal təchizatının lokallaşdırılmasına və müvafiq olaraq idxal asılılığının və xammal qiymətlərindəki xarici risklərin təsirini azaldar;**
- **Müəssisələrin ortaq infrastruktura və təchizat zəncirinə malik klasterlərdə birləşməsi istehsal səmərəliliyinin və çevikliyini artırar;**
- **Sənaye sahəsi üzrə ixtisaslaşmış mütəxəssislərin hazırlanması və mövcud kadrların peşə bacarıqlarının inkişafı üçün təlim proqramlarının genişləndirilməsi istehsal prosesinin idarə olunması və yeni texnologiyaların mənimsənilməsini sürətləndirər**
- **Müəssisələrin dövlət dəstəyi mexanizmlərinə (sənaye parkları rezidentliyi, investisiya təşviqi sənədi, güzəştli kreditlər, beynəlxalq sərgilərdə iştirakın təşviqi) çıxışının gücləndirilməsi, daha fəal faydalanması üçün təbliğat tədbirlərinin genişləndirilməsi**

# TÖVSİYƏLƏR

- **Müştəri etimadının artırılması üçün qida ilə təmasda olan materiallar üçün uyğunluq sertifikatları, boya və kimya üçün təhlükəsizlik sertifikatların olması və tələblərə əməl edilməsi**
- **Təkrar emal və metal tullantısının səmərəli idarə edilməsi həm maya dəyərini azalmasına, həm də ekoloji arqument kimi istifadə oluna bilər.**
- **Rəqəmsal həllərin tətbiqi (məsələn, texniki kataloqu, ölçü və örtük variantlarını, qiymət sorğusu, müştərilər üçün “onlayn sorğu / təklif al” sistemi) həm yerli, həm də xarici müştərilərin işini asanlaşdırmaqla müəssisəni daha cəlbedici edə bilər.**
- **Məhsul və xidmət çeşidinin genişləndirilməsi, yəni müştəriyə fərqli dizayn (etiket, rənglər), logistika və anbarlama həlləri təklif etmək.**

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR!